*Qədim, doğma Qobustanım*

# QOBUSTAN

*Qobustan Rayon İcra Hakimiyyətinin orqanı*

Qəzet 1992-ci ildən çıxır * İCTİMAİ-SİYASİ QƏZET * №006 (181) * Oktyabr 2018-ci il

## Qobustan rayonu İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədovun 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair HESABATI





**Hörmətli müşavirə iştirakçıları!**

Məlumunuz olduğu kimi oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2018-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclası keçirilib. İclasın gedişini sizlər izləmisiniz. Mən bəzi məqamlara bir daha diqqətinizi yönəltmək istərdim.

İclasda qeyd olunduğu kimi 2018-ci il ölkəmiz üçün uğurlu il olmuşdur. İlin əvvəlindən qarşıya qoyulan bütün vəzifələr uğurla və vaxtında icra edilmişdir. Ölkəmiz əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşamışdır.

İclasda cənab Prezident vurğulamışdır ki, bu gün sabitlik, təhlükəsizlik hər bir ölkə üçün əsas amillərdən biridir. Dünyada və xüsusilə yaşadığımız bölgədə vəziyyət gərgin olaraq qalır, yeni qarşıdurma, münaqişə ocaqları yaranır. Belə olan vəziyyətdə biz əlbəttə ki, özümüzü mümkün olan xarici risklərdən daha da ciddi qorumalıyıq və qoruyuruq. Cənab Prezident bir daha qeyd etmişdir ki, Azərbaycanda daxili risklər mənbəyi yoxdur və biz öz siyasətimizlə, görülən işlərlə özümüzü mümkün olan təhlükələrdən qoruyuruq, Azərbaycan xalqının rahat həyatını təmin edirik və edəcəyik.

Bu il cənab Prezidentin iştirakı ilə bir neçə önəmli beynəlxalq hadisə baş vermişdir.Onların arasında Xəzər dənizinin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsi mühüm bir tarixi sənəddir və bu sənəddə Azərbaycanın milli maraqları tam şəkildə öz əksini tapıb. Cənab Prezidentin qeyd etdiyi kimi, "Bu, bölgənin, regionun inkişafı, iqtisadi imkanlarının genişləndirilməsi üçün çox önəmli bir sənəddir, çox ciddi hüquqi sənəddir".

İclasda cənab Prezident bildirmişdir ki, bu il Azərbaycanda Qoşulmama Hərəkatının xarici işlər nazirlərinin böyük konfransı keçirilmişdir. Azərbaycan bu təşkilatda uğurla fəaliyyət göstərir və gələn ildən başlayaraq bu təşkilata, dünyanın ən böyük təşkilatlarından biri olan Qoşulmama Hərəkatına sədrlik edəcəkdir. Bakıda Qoşulmama Hərəkatının Zirvə görüşü keçiriləcəkdir. Bu ilin yayında Avropa İttifaqı ilə Azərbaycan arasında "Tərəfdaşlıq prioritetləri" sənədi imzalanmışdır. Bu sənəddə bir çox önəmli məsələlər öz əksini tapır. O cümlədən, bu sənəddə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan müddəalar həm ədalətlidir, həm də bizim mövqeyimizi və maraqlarımızı tam şəkildə ifadə edir. Bu sənəddə göstərilir ki, Azərbaycanın suverenliyi, sərhədlərinin toxunulmazlığı, ərazi bütövlüyü Avropa İttifaqı tərəfindən dəstəklənir. Eyni zamanda, NATO-nun Zirvə görüşünün yekununda qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək bir daha ifadə edilmişdir. Bütün bu sənədlər Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli işində bizim mövqeyimizi daha da möhkəmləndirir.

Ali Baş Komandan bildirmişdir ki, danışıqlar formatı dəyişməz olaraq qalır və bu münaqişə tezliklə beynəlxalq hüququn norma və prinsipləri əsasında, ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqların predmeti olmayıb, bu gün də deyil və heç vaxt olmayacaq. Ona görə biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq. Bununla yanaşı, əlbəttə ki, biz öz hərbi qüdrətimizi artırırıq və artıracağıq. Azərbaycan Ordusu dünya miqyasında 50 ən güclü ordu sırasındadır.

Eyni zamanda, bu il Bakıda iki dəfə möhtəşəm hərbi parad keçirilmişdir və bu paradlarda bizim hərbi qüdrətimiz həm xalqımıza, həm dünyaya nümayiş etdirilmişdir. Bu gün biz hərbi texnikanın istehsalı işində uğurla inkişaf edirik. Azərbaycanda mindən çox adda hərbi təyinatlı məhsul istehsal olunur. Bu gün ölkəmizin hərbi potensialı ən yüksək səviyyədədir.

Ordumuzun döyüş qabiliyyəti də yüksək səviyyədədir. Bizim ordumuz bunu döyüş meydanında da göstərib və nümayiş etdirib.

İclasda vurğulanmışdır ki, bu ilin doqquz ayında ümumi daxili məhsul 0,8 faiz, qeyri-neft sektorumuz 2 faiz artmışdır. Sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi isə 10,8 faiz artmışdır. Bu göstərici Azərbaycanda aparılan sənayeləşmə siyasətinin nəticəsidir.

Kənd təsərrüfatı doqquz ayda 4,3 faiz artıb. Bu da kifayət qədər yaxşı göstəricidir. İnflyasiya cəmi 2,6 faizdir, əhalinin gəlirləri isə 9,5 faizdir. İnflyasiyanın aşağı səviyyədə olması, il ərzində daha da düşməsi göstərir ki, bizim maliyyə vəziyyətimiz çox sabitdir və makroiqtisadi vəziyyət möhkəmdir.

Bu ilin doqquz ayında ölkə iqtisadiyyatına 9 milyard dollar sərmayə qoyulmuşdur. Sevindirici hal ondan ibarətdir ki, bu vəsaitin 5,6 milyard dolları qeyri-neft sektoruna qoyulub. Bu, iqtisadiyyatımızın bundan sonra da şaxələndirilməsinə xidmət göstərəcəkdir.

Cənab Prezident bildirmişdir ki, bizim əsas vəzifəmiz kölgə iqtisadiyyatının aradan qaldırılmasıdır. Azərbaycanda kölgə iqtisadiyyatının kəskin şəkildə azalması üçün çox ciddi addımlar atılır. Vergidən yayınma halları əvvəlki illərdə kütləvi xarakter daşıyırdı. Bu gün bu hallara son qoyulur.Bütün dövlət orqanları vergi orqanlarına kömək göstərməlidirlər.

Vergidən yayınmaya son qoyulmalıdır. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər.

Uçot sisteminin yaradılması prioritet məsələlərdən biridir. Qeyri-rəsmi məşğulluğun aradan qaldırılması üçün də praktiki addımlar atılır.

Qeyri-neft sektorunun inkişafı üçün çox böyük işlər görülür, addımlar atılır. Xüsusilə son dövrdə qəbul edilmiş qərarlar çox böyük canlanmaya gətirib çıxarıb.

Təkcə onu demək kifayətdir ki, investisiya təşviqi sisteminin tətbiqindən sonra 300-dən çox investisiya təşviqi sənədi verilmişdir. Bu layihələrin icrası nəticəsində 20 min iş yeri yaradılıb.

**Hörmətli müşavirə iştirakçıları!**

Bu il ölkəmizdə əlamətdar hadisələrdən biri də "Azerspace-2" peykinin orbitə buraxılmasıdır. Bu, böyük nailiyyətdir. Bu, kosmik dövlət kimi Azərbaycanın mövqelərini daha da möhkəmləndirir. Bizim indi 3 peykimiz var. "Azerspace-2" peykinin orbitə çıxarılması bizim böyük qələbəmizdir. Eyni zamanda, bu sahədə görüləcək işlər bizə əlavə vəsait gətirəcək.

Sahibkarlara bundan sonra da dövlət öz dəstəyini göstərəcək. Bu günə qədər Sahibkarlığın İnkişafı Fonduna 2,2 milyard manat vəsait ayrılmışdır. Bu proses davam etdirilir.

Cənab Prezident qeyd etmişdir ki, kənd təsərrüfatının inkişafı daim diqqət mərkəzindədir. Kənd təsərrüfatı sahəsində aparılan islahatlar daha da böyük nəticələrə çatmağa imkan verəcəkdir. Doqquz ayda 5700 kənd təsərrüfatı texnikası alınıbdır. Respublikamızda 192 min hektar sahədə 45 aqroparkın yaradılması nəzərdə tutulur.

*(Ardı səh.2-də)*

# Qobustan rayonunda Müstəqillik günü və şəhər günü qeyd edildi





***Tədbir ulu öndər Heydər Əliyevin abidəsi önünə gül qoyma ilə başladı. Gül qoyma mərasimində idarə-müəssisə rəhbərləri, rayon ağsaqqalları, ictimaiyyət nümayəndələri iştirak edirdilər.***




Tədbir sonra Qobustan rayon Gənclər Mərkəzində davam etdi.

Tədbiri Qobustan rayon icra hakimiyyətinin başçısının müavini Məharət Əkbərov giriş sözü ilə açdı və geniş məruzə ilə çıxış etdi:

Məhz cənab Prezidentimizin təşəbbüsü nəticəsində vaxtilə kiçik qəsəbə və kənddən ibarət olan, sosial infrastruktur və abadlıq baxımından demək olar ki, heç bir inkişafı olmayan 2 yaşayış məntəqəsi birləşdirilərək 23.10.2008 - ci ildə müasir Qobustan şəhəri yaradılmış və qısa müddətdə burada görülən işlər bizə deməyə əsas verir ki, yaxın gələcəkdə Qobustan şəhəri respublikamızın ən abad, gözəl bir şəhərinə çevriləcəkdir.

Qobustan rayonunda inkişaf yalnız Qobustan şəhəri ilə məhdudlaşmır, bizim kəndlərimizin bir çoxunda artıq, içməli su, yol, məktəb, rabitə, elektrik enerjisi ilə təminat məsələləri öz müsbət həllini tapmışdır.

Rayonumuza göstərdiyi bu yüksək diqqət və qayğıya görə möhtərəm Prezidentimizə rayon ictimaiyyəti adından öz dərin minnətdarlığımızı bildiririk.

Rəsmi hissəsi bitdikdən sonra tədbir konsert tanınmış sənətçilərin ifaları ilə davam etdi.

***Niyal Xanəliyev***

# "Azərbaycan Respublikasında qeyri-qanuni yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin leqallaşdırılması, vətəndaşsızlıq hallarının aradan qaldırılması"



12 sentyabr 2018-ci il tarixdə Qobustan rayonunda Qobustan rayon İcra Hakimiyyətinin inzibati binasında Dövlət Miqrasiya Xidmətinin Ağsu regional miqrasiya idarəsi tərəfindən xidmət ərazisinə daxil olan Qobustan rayonu ərazisində yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, vətəndaşsızlıq vəziyyətində olan şəxslər, rayonun kənd inzibati ərazi dairələri üzrə nümayəndələri və bələdiyyə üzvləri, həmçinin aidiyyəti dövlət qurumları, məhkəmə, hüquq-mühafizə orqanlarının, təhsil və səhiyyə işçiləri, ictimai təşkilatların nümayəndələri olmaqla ümumilikdə 83 nəfərin iştirakı ilə "Azərbaycan Respublikasında qeyri-qanuni yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslərin leqallaşdırılması, vətəndaşsızlıq hallarının aradan qaldırılması" mövzusunda maarifləndirmə tədbiri keçirilmişdir.

Tədbiri Qobustan rayon İcra Hakimiyyətinin başçısının müavini Əkbərov Məharət Xalis oğlu açıq elan etmiş, Dövlət Miqrasiya Xidmətinin həyata keçirdiyi maarifləndirmə tədbirlərin davamı olaraq Qobustanda tədbirin keçirilməsinin əhəmiyyəti barədə məlumat vermiş, daha sonra Dövlət Miqrasiya Xidmətinin məsul vəzifəli şəxslərinə çıxış üçün söz verilmşdir. Çıxışlarda "Dövlət Miqrasiya Xidmətinin yaradılması tarixi, inkişaf mərhələsi və fəaliyyət istiqaməti" barədə tədbir iştirakçılarına geniş məlumat vermişdir. Qeyd edilmişdir ki, vətəndaşsızlıq halları ilə mübarizə sahəsində məlumatlılığın artırılması və maarifləndirmə, eləcə də ölkəmizin tərəfdar çıxdığı beynəlxalq konvensiyaların tələbləri istiqamətində ciddi işlər görülmüşdür.



Tədbir iştirakçılarına miqrasiya qanunvericiliyinə edilmiş əlavə və dəyişikliklərlə bağlı məlumatların verilməsi, əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin ölkədə olduğu yer üzrə qeydiyyata alınması, ölkədə müvəqqəti olma, müvəqqəti və daimi yaşama qaydaları, həmçinin vətəndaşlıq məsələləri ilə bağlı Dövlət Miqrasiya Xidməti tərəfindən hazırlanmış videoslaydlardan istifadə etməklə ətraflı və geniş məlumatlar verilmişdir. Tədbirin mövzusu ilə bağlı Xidmət tərəfindən hazırlanmış bukletlər və tələb olunan sənəd siyahıları tədbir iştirakçılarına təqdim olunmuş, onları maraqlandıran suallar qanunamüvafiq qaydada cavablandırılmışdır.



Tədbirin sonunda müraciət edən şəxsərə Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı, Azərbaycan Respublikasının vətəndaşlıq mənsubiyyətinin müəyyən edilməsi həmçinin müvəqqəti yaşama icazələrinin verilməsi ilə bağlı səyyar xidmət göstərilmiş, rayon ərazisindən kənarda yaşayıb miqrasiya ilə bağlı gəlməkdə çətinliyi olan şəxslərin müvafiq müraciətləri qəbul edilmişdir.

Qobustan rayon icra hakimiyyəti başçısının müavini Məharət Əkbərov tədbir iştirakçıları adından vətəndaş məmunluğunun təmin edilməsi məqsədilə belə bir maarifləndirmə tədbiri təşkil etdikləri üçün Dövlət Miqrasiya Xidmətinin rəhbərliyinə təşəkkürünü bildirmişdir.

## Təbrik edirik



***Balaca Ayxanı atası və anası, babasi Elşən və Rauf, nənələri, əmiləri, dayıları, bibisi və bir sözlə əzizləri 1- yaşı münasibəti ilə təbrik edir və ona uzun ömür arzulayır. Atalı-analı xoşbəxt böyüsün. Amin!***

Xoş gəldin ailəmizə, mənim körpəcə quzum,
Şükür olsun Allaha, yerinə yetdi arzum.
Sən gəldin gəlişinlə, gəldi baharım- yazım,
Süd qoxulu nəfəsindən, evimə gül ələndi
Rühümüz təzələndi!

Allahdan gözəl payım, ən qiymətlim, qazancım
Nəslimin davamçısı, gələcəyim, inancım,
Balaca Türküm mənim, ürəyim , qanım, canım,
Ayxanım, nəvəm dedim, dilimə bal bələndi,
Evimə nur ələndi!

Nə yaxşı ki, doğuldun, sevindirdin hammizi,
Gülüşlərin, qığıltın aşikar həyat rəmzi,
İstəkdə bala qədər, doğması, həm əzizi.
Bir balaca fidanım, boy atdı şaxələndi,
Babalar qürrələndi!

## 2018-ci ilin noyabr ayı ərzində vergi orqanına təqdim edilməli olan bəyannamələr və ödənilməli vergilər barədə

## YADDAŞ

2018-ci ilin oktyabr ayına görəvergi ödəyiciləri tərəfindən tədiyəçisi olduqları

- ➔ Əlavə dəyər vergisi bəyannaməsi,
- ➔ Aksiz bəyannaməsi,
- ➔ Yol vergisi bəyannaməsi,
- ➔ Mədən vergisi bəyannaməsi,
- ➔ Pul vəsaitlərinin nağd çıxarılmasına görə Sadələşdirilmiş verginin bəyannaməsi və
- ➔ Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

Cari ilin noyabr ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim edilmiş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

➔ Daşınmaz əmlakın təqdim edilməsi üzrə Sadələşdirilmiş verginin bəyannaməsi cari ilin noyabr ayının 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

➔ Muzdlu işlə əlaqədar 2018-ci ilin oktyabr ayı üzrə ödəmə mənbəyində hesablanaraq tutulan vergi cari ilin noyabr ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (ƏDV və Sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ildə yanvar ayının 31-dən gec olmayaraq, digər vergi ödəyiciləri 2018-ci ilin 4-cü rübü üzrə bəyannaməni növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edirlər).

➔ Xüsusi notariusların 2018-ci ilin oktyabr ayı üzrə hesabladığı gəlir vergisi cari ilin noyabr ayının 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir (2018-ci ilin 4-cü rübü üzrə bəyannamə növbəti ildə yanvar ayının 21-dən gec olmayaraq təqdim edilməlidir).

**Əmlak və torpaq vergisinin ödəyiciləri olan müəssisələr**

➔ 2018-ci il üzrə hesablanmış Torpaq vergisinin qalanı (yarısını) cari ilin noyabr ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

➔ 2018-ci ilin 4-cü rübü üzrə hesablanmış əmlak vergisinin cari ödəmələrini noyabr ayının 15-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

***Azərbaycan Respublikası Vergilər Nazirliyi***

## ELAN

Maqsudov Maqsud Mərvan oğluna məxsus JN-291 kod 30700038 dövlət aktı itmişdir.

Əzizov Rüstəm Əziz oğluna məxsus №009323 vəsiqə itmişdir.

***

**1 oktyabr 2018-ci il tarixdən Qobustan -Bakı marşurutu fəailiyyət göztərir.**

*Təsisçi:* Qobustan Rayon İcra Hakimiyyəti
www.qobustan-ih.gov.az

*Baş redaktor:* Ruslan Şahbazov
Tel.: (050) 524 28 10
(070) 224 28 10

*Ünvan:* Qobustan şəhəri, Heydər Əliyev prospekti. Qobustan Rayon İcra Hakimiyyətinin binası.
Qəzet ayda iki dəfə çıxır

Qəzet "Ekspress Servis" mətbəəsində çap olunmuşdur
Tiraj: 2000
E_mail:qobustanqazeti@mail.ru

# Qobustan rayonu İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədovun 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair HESABATI

*(Əvvəli səh.1-də)*

Kənd təsərrüfatı ilə bağlı cənab Prezident bildirmişdir ki, ilk növbədə, biz daxili tələbatı təmin etməliyik, məhsuldarlığı artırmalıyıq, elmi yanaşmanı tətbiq etməliyik və ixrac imkanlarımızı genişləndirməliyik. Bu sahədə kiçik sahibkarlıq da öz rolunu oynayır və oynayacaq. İndi "ABAD" - "Ailə Biznesinə Asan Dəstək" mərkəzləri yaradılır.

Özünüməşğulluq sisteminin tətbiqi ilə bağlı məsələlərə də toxunan cənab Prezident bildirmişdir ki, bu sistem əlbəttə ki, təkcə kənd təsərrüfatı sahəsini əhatə etməyəcək. Burada da hər il 6 min, 7 min iş yeri yaradılmalıdır. Özünüməşğulluq proqramı işsizliyin, xüsusilə bölgələrdə işsizliyin, yoxsulluğun aradan qaldırılması üçün çox önəmli bir vasitə, alət olacaq.

Eyni zamanda, bu gün dövlətdən sosial yardım alan ailələr dövlət tərəfindən, dövlət dəstəyi ilə onlara lazımi vəsait verildən sonra öz həyatlarını özləri quracaqlar və öz maliyyə imkanlarını böyük dərəcədə artırmış olacaqlar.

Cənab Prezident xüsusilə vurğulamışdır ki, sosial sahədə biz "ASAN xidmət"in analoqunu yaradırıq - Dayanıqlı və Operativ Sosial Təminat mərkəzləri - DOST mərkəzləri. Bu sahədə vətəndaşlar yaxın gələcəkdə müsbət dəyişiklikləri görəcəklər, artıq görürlər.

Eyni zamanda, şəhid ailələri, Qarabağ müharibəsi əlilləri üçün evlərin tikintisi daha da sürətlə gedəcək. Bu il bu məqsədlər üçün Prezidentin ehtiyat fondundan 20 milyon manat ayrılmışdır ki, şəhid ailələrinə, müharibə veteranlarına, əlillərinə yüzlərlə mənzil və maşın verilsin.

Cənab Prezident bildirmişdir ki, gələn ilin əvvəlində biz növbəti regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını qəbul edəcəyik. Bu il üçüncü proqramın icrası başa çatır. Proqram demək olar ki, artıqlaması ilə icra edilib. İndi dördüncü proqram hazırlanır, son mərhələdədir.

Dördüncü proqramda bu gün hələ də görə bilmədiyimiz işlər öz əksini tapmalıdır ki, qarşımızda duran bütün vəzifələr icra edilsin.

Bu ilin doqquz ayı rayonumuz üçün də uğurlu olmuşdur. Belə ki, 2018-ci ilin 9 ayında rayonun yerli gəlirləri üzrə mədaxil planı 2 milyon 193 min 400 manat plana qarşı 2 milyon 445 min 200 manat icra olunaraq 111,5 faiz yerinə yetirilmişdir. Fiziki şəxslərin əmək haqlarından gəlir vergisi 119,4 faiz icra edilmişdir. Hüquqi şəxslərin mənfəət vergisi 128,7 faiz, əlavə dəyər vergisi 101,8 faiz icra edilmişdir. Aksiz vergisi planlaşdırılmadığı halda, bu tədiyyə növü üzrə 172,5 min manat vergi daxil olmuşdur. Bununla yanaşı, hüquqi şəxslərin əmlak vergisi, hüquqi şəxslərin torpaq vergisi, sadələşmiş vergi və dövlət rüsumu üzrə plan nisbətən kəsrlə yerinə yetirilmişdir.

Biz çalışmalıyıq ki, ilin sonunadək bütün tədiyyə növləri üzrə planı yerinə yetirməklə özümüzü daha çox yerli gəlirlərlə təmin edək.



Bu ilin doqquz ayında əhalinin elektrik enerjisi, təbii qaz və içməli su təminatının yaxşılaşdırılması istiqamətində də bir sıra mühüm işlər görülmüşdür.

Qobustan Elektrik Şəbəkəsi tərəfindən rayonda qismən cari saxlama və təmir işləri aparılmış, Qobustan şəhərində kabelləşmə davam etdirilmişdir. Lakin bu işlər çox ləng və keyfiyyətsiz aparılır. Qobustan şəhərində heç bir şəhərsalma normalarına uyğun gəlməyən 130-dan artıq istismar müddətini başa vurmuş beton dirəklərə, yöndəmsiz, köhnə dəmir və taxta dayaqlara kabellər vurulur ki, bu da müasir dövrün tələblərinə uyğun gəlmir. Ümumilikdə rayon üzrə kabelləşmənin gedişi bizi qane etmir.

Artıq payız-qış dövrünün başlanmasına baxmayaraq Nabur, Ərəbqədim, Şıxzahırlı, Qurbançı, Ərəbşahverdi, Qaracüzlü və Cəyirli kəndlərinin elektrik xətlərində ciddi təmir işləri aparılmamış, tez-tez açılmalara yol verilir ki, bu da vətəndaşlar tərəfindən narazılıqla qarşılanır.

Onu da qeyd edək ki, 2018-ci ilin doqquz ayında rayon üzrə elektrik enerjisinin dəyərinin ödənişi 88,9 faiz, əhali istehlakçıları üzrə yığım isə ötən ilin müvafiq dövrünə nisbətən 5,7 faiz artaraq 94 faiz olmuşdur.

Ölkə Prezidentinin diqqət və qayğısı nəticəsində rayonumuzda ev təsərrüfatlarının 80 faizindən çoxu, əhali üzrə isə 93 faizi təbii qazla təmin olunmuşdur. Əhali tərəfindən istehlak olunmuş təbii qazın dəyərinin ödənilməsində hər hansı problem yoxdur. Bu ilin doqquz ayında rayon üzrə istehlak olunmuş təbii qazın dəyəri əhali üzrə 115,8 faiz ödənilmişdir.

Möhtərəm Prezidentimizin sərəncamı ilə bu il Şıxzahırlı kəndinin qazlaşdırılmasına başlanılmış və işlər artıq yekunlaşmaq üzrədir. Biz yaxın günlərdə Şıxzahırlı kəndinə təbii qazın verilməsini qeyd edəcəyik.Bununla da rayonumuzun əhalisinin 96 faizi təbii qazla təmin ediləcəkdir.

Növbəti illərdə şəhərdə qazlaşmayan evlərin qazlaşdırılması, Təsi, Sədəfli, Cəngi, Qaracüzlü, Nardaran və Ceyrankeçməz kəndlərinin də qazlaşdırılması istiqamətində işlər görülməlidir. İnanırıq ki, növbəti illərdə bu məsələ öz müsbət həllini tapacaqdır.

Biz Şıxzahırlı kəndində səyyar qəbulda olarkən kənd sakinlərinin, ağsaqqalların Ölkə Prezidentinə çoxsaylı səmimi minnətdarlıqlarının şahidi olduq. Bir daha Möhtərəm Prezidentimizə Qobustanlılar adından dərin minnətdarlığımızı bildiririk.



Əhalinin içməli su təminatı istiqamətində işlər davam etdirilir. Vaxtilə rayonumuzda demək olar ki, heç bir kənddə içməli su şəbəkəsi olmadığı halda, hazırda rayon sakinlərinin 35 faizindən çoxu içməli sudan normal istifadə edirlər. Növbəti illərdə biz ilk növbədə 2013-cü ildə içməli su xətti çəkilmiş Ərəbqədim, Cəmcəmli, Göydərə kəndlərində şəbəkənin qurulmasına, eyni zamanda Xilmilli və digər kəndlərdə içməli su təminatının yaxşılaşdırılmasına nail olmalıyıq. Bu ilin doqquz ayında içməli suyun dəyəri rayon əhalisi tərəfindən 97,1 faiz ödənilmişdir və bu da ötən ilin müvafiq dövrünə nisbətən 4,1 faiz çoxdur.

Cənab Prezidentin sərəncamı ilə bu il əkin sahəsinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, yeni suvarılacaq torpaqların suvarma suyuna, habelə əhalinin içməli suya olan tələbatının ödənilməsi məqsədilə Çuxanlı və Sündü kəndlərində 1 ədəd artezian quyusunun qazılması başa çatdırılmış və yaxın vaxtlarda istifadəyə veriləcəkdir.

Hesabat dövründə əhalinin sosial müdafiəsi məsələləri də diqqət mərkəzində olmuşdur. Novruz bayramı ərəfəsində Heydər Əliyev Fondu tərəfindən 78 aztəminatlı ailəyə, Rayon İcra Hakimiyyəti tərəfindən isə Novruz, Ramazan və Qurban bayramlarının hər birində 525 ailəyə bayram sovqatı verilmişdir.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Qobustan rayon şöbəsi tərəfindən 2018-ci ilin 9 ayında 61 nəfərə əmək pensiyası, 205 nəfərə sosial müavinət, 326 ailənin 370 yeni doğulmuş uşağına birdəfəlik müavinət, 166 nəfərə dəfnlə əlaqədar birdəfəlik müavinət, əmək qabiliyyətini itirdiyinə görə 12 nəfərə sosial sığorta ödənişi, 105 nəfərə qismən ödənilən analıq məzuniyyətinə görə müavinət, 14 nəfər Çernobl əlilinə birdəfəlik kompensasiya, 18 nəfər pentensiar xidmətdən azad olunmuş şəxsə birdəfəlik müavinət, 2 aztəminatlı ailənin 3 (1 yaşadək) uşağına müavinət verilmişdir. Hazırda rayon üzrə 4468 nəfərə əmək pensiyası, 2529 nəfərə sosial müavinət verilir. 71 nəfər tənha yaşayan şəxsə 9 nəfər sosial işçi tərəfindən xidmət göstərilir.

Bu il cənab Prezidentin sərəncamı əsasında Şəhid ailələrinə 11000 manat sığorta pulunun verilməsini hər bir Şəhid ailəsi böyük diqqət kimi qəbul edir və çoxsaylı görüşlərdə bununla bağlı cənab Prezidentə öz minnətdarlıqlarını ifadə etmişlər.

Hazırda rayonda 3 Qarabağ əlili və 1 şəhid ailəsi üçün fərdi mənzillər tikilmişdir, lakin son tamamlama işlərində ləngimələrə yol verilir ki, bu istiqamətdə işlər sürətləndirilməlidir.

Bir məlumatı da sizlərin diqqətinə çatdırmaq istərdim. 10 ildən artıqdır ki, Qobustan şəhəri yaranmışdır. Buna baxmayaraq bu vaxta qədər Bakı-Qobustan-Bakı marşrutu olmayıb. Dəfələrlə bununla bağlı bizə müraciətlər edilirdi. Artıq bu aydan Bakı-Qobustan-Bakı marşrutu fəaliyyətə başlamışdır. Rayon sakinləri bu marşrutdan rahat şəkildə, daha ucuz şəkildə istifadə edə bilər.

Rayonumuzda tikinti-quruculuq abadlıq işləri uğurla davam edir. 14,5 km uzunluqda Bədəlli-Yekəxana yolu başa çatmaq üzrədir. Bu yol 5,0 mindən artıq əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, həmin bölgənin inkişafına ciddi bir təkan olacaqdır.

Rayonumuza verilən bu mühüm töhfəyə görə möhtərəm Prezidentimizə öz dərin minnətdarlığımızı bildiririk.

Bu il Qobustan şəhərində 1 ədəd 3 mərtəbəli, 2 ədəd birmərtəbəli, 2 ədəd 2 mərtəbəli binaların təmiri işləri yekunlaşmaq üzrədir.

Rayonda yeni xəstəxana binasının, 624 şagird yerlik məktəbin, 100 yerlik uşaq bağçasının tikintisi başa çatmış, son tamamlama işləri aparılır.

Daxili imkanlar hesabına rayonda şahmat məktəbinin tikintisi davam etdirilir.

Rayonda yaşıllıqların artırılmasına xüsusi diqqət yetirilir. 9 ayda Qobustan şəhərində, Təklə kəndində yol kənarında, "Aqrolizinq" ASC-nin Qobustan Regional Nümayəndəliyinin həyətində və yol kənarında, Cəngi kəndinin girişində salınan parkda ümumilikdə 5000-dən artıq müxtəlif növ ağac, 1500-dən artıq qızılgül kolu əkilmişdir. Payız mövsümündə biz yenidən bu mühüm tədbiri davam etdirməliyik.

Bildiyiniz kimi, aqroparkın salınması davam edir. Ərazidə 200 başlıq cins mal-qara fermasının tikintisinə başlanmış, elektrik xətti çəkilir. Bundan başqa aqropark ərazisində ötən il 300 ha sahədə buğda, 400 ha sahədə isə arpa əkilmişdir. Suvarma təşkil edilmədiyi üçün aqropark ərazisində məhsuldarlıq bir qədər aşağı olmuşdur. Onu da qeyd edək ki, aqroparka 14 km məsafədə yerləşən "Qozluçay" çayından kanalın çəkilməsi və sututarının qurulması zəruridir.

Ötən dövr ərzində Qobustan şəhərində əhalinin sel sularından qorunması üçün son dərəcə vacib olan 4,0 min paqon metr yağış ötürmə kanalı çəkilmiş, 59,0 min kvadrat metr şəhərdaxili yola asfalt vurulmuş, 9,0 min paqon metr uzunluqda səkilər çəkilmiş, 300-dən artıq yeni işıqlandırma dirəkləri quraşdırılmışdır.

*(Ardı səh.3-də)*

# Qobustan rayonu İcra hakimiyyətinin başçısı cənab Adil Məmmədovun 2018-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair HESABATI

*(Əvvəli səh.2-də)*

Onu da qeyd edək ki, bu ilin doqquz ayında rayona 3 milyon 396 min manat dəyərində özəl investisiya qoyulmuşdur. Biz çalışmalıyıq ki, rayon iqtisadiyyatına sahibkarların cəlb olunmasına bundan sonra da ciddi fikir verək. Biz hər bir sahibkara rayonda normal iş şəraiti yaratmağa hazırıq.

Rayonda iqtisadiyyatın əsasını aqrar sahə təşkil edir. Hələ ötən ilin payızından taxılçılığa diqqətin daha da artırılması, ziyanvericilərə qarşı mübarizə və yemləmə gübrələrindən düzgün istifadə, əkin sahələrinin yabanı otlar üçün saxlanmasının qarşısının alınması istiqamətində görülmüş işlər bu il öz müsbət bəhrəsini vermiş, bu il rayonda 70 min 236 ton taxıl istehsal edilmişdir ki, bu da rayon tarixində ən yüksək göstərici olmaqla, ötən ilin müvafiq dövrünə nisbətən 17,0 min ton və ya 31,8 faiz çoxdur. İstehsal olunmuş taxılın 48236 tonu buğda (ötən ildəkindən 14,3 min ton çox) 22,0 min tonu arpa (ötən ildəkindən 2,6 min ton çox) təşkil edir. Buğda sahəsi üzrə məhsuldarlıq 23,1 sentner (ötən illə müqayisədə 1,6 sentner çox), arpa üzrə isə



22,5 sentner (ötən ildəkindən 1,7 sentner çox) olmuşdur. Onu da qeyd edək ki, bu il əkin sahəsinin çox olmasına baxmayaraq (30936 ha əkin sahəsi olmuşdur ki, bu da ötən ildəkindən 5835 ha çoxdur) biçin işləri mütəşəkkil təşkil edilmiş və vaxtında başa çatdırılmışdır.

Bugünkü günədək rayonda 17,0 min ha şum çıxarılmış, 6543 ha sahədə səpin işləri aparılmışdır. Bu bizi qane edə bilməz, işlər sürətləndirilməlidir. Biz çalışmalıyıq ki, noyabr ayının 20-dək səpini yekunlaşdıraq.

Taxılçılığa dövlət dəstəyi davam etdirilir. Bu il rayon üzrə 4986 mülkiyyətçinin 30927 ha əkin sahəsinə 2 milyon 388 min 368 manat subsidiya verilmişdir. Rayon fermerlərinin 90 faizi cari taxılçılıq mövsümündə şumaltı və yemləmə gübrələrindən güzəştli şərtlərlə istifadə etmişlər.

Hesabat dövründə ötən ilin müvafiq dövrünə nisbətən iribuynuzlu mal-qaranın baş sayı 0,5 faiz artaraq 30 min 779 başa, o cümlədən inək və camışların baş sayı 0,6 faiz artaraq 11 min 578 başa çatmışdır. Qoyun və keçilərin baş sayı 0,2 faiz artaraq 191 min 133 baş olmuşdur. Quşların baş sayı 5,8 faiz artaraq 93 min 72 başa çatmışdır.

Baxılan dövrdə ət istehsalı 1,4 faiz, süd istehsalı 1,3 faiz, yumurta istehsalı 1,2 faiz, yun istehsalı isə 1,2 faiz artmışdır.

01 oktyabr 2018-ci il tarixə rayon üzrə 986 baş qaramal süni mayalandırılmış, 615 baş buzov alınmışdır. 559 baş buzova 55 min 900 manat subsidiya verilmişdir.

Rayonumuzda son illərdə arıçılığa maraq artmışdır.Rayon üzrə hazırda 232 mülkiyyətdə 5521 arı ailəsi vardır. Bu il havaların arıçılıq üçün əlverişsiz olmasına baxmayaraq, 12 tondan çox bal istehsal edilmişdir. Hər arı ailəsinə görə 10 manat hesabı ilə subsidiyanın verilməsi istiqamətində iş aparılır.

2018-ci ildə rayonumuzda təhsil sahəsində də bir sıra uğurlar əldə edilmişdir. Belə ki, bu il 110 nəfər şagird tələbə adını qazanmışdır. Bu da ötən illə müqayisədə 28 nəfər çoxdur. Sevindirici haldır ki, bu il 6 nəfər şagird 600-dən yüksək bal toplamışdır.Şikar Şikarov adına Sündü kənd tam orta məktəbinin məzunu Aydın Ağaverdiyev 683 balla Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına qəbul olunmuşdur. Bu il 3 nəfər Azərbaycan Dövlət Aqrar Universitetinə, 2 nəfər Azərbaycan Dövlət Tibb Universitetinə qəbul olunmuşdur.

2018-ci ilin 9 ayında rayonumuzun gənclər və idman siyasəti sahəsində də fəallıq hiss olunmuşdur. Gənclər siyasəti üzrə 34, idman sahəsi üzrə 15 tədbir həyata keçirilmiş, 4588 yeniyetmə gənc bu tədbirlərdə iştirak etmişdir. Bundan əlavə rayon idmançıları 5 beynəlxalq, 19 Respublika, 21 zona yarışında iştirak etmişdir.Bu yarışlarda rayon idmançıları 64 qızıl, 42 gümüş və 74 bürünc olmaqla 180 dəst medal qazanmışdır.

Ümumilikdə bu il ali məktəbə qəbul olan hər bir şagirdi və yüksək nəticələr qazanmış bütün idmançılarımızı təbrik edirəm.

Artıq il başa çatmaq üzrədir. Biz daha məsuliyyətli və gərgin işləməklə, çalışmalıyıq ki, ilin sonunadək qarşıya qoyulan bütün məsələləri vaxtında başa çatdıraq, ili daha yüksək nəticələrlə yekunlaşdıraq.

Cənab Prezidentimizi əmin edirəm ki, rayonumuzun daha da inkişaf etdirilməsi, üzərimizə düşən vəzifələrin yüksək dəqiqliklə və vaxtında yerinə yetirilməsi üçün bütün qüvvə və bacarıqlarımızı səfərbər edəcəyik.

**Diqqətinizə görə sağ olun.**

# Azərbaycan Prokurorluğunun yaranmasının 100 illiyi münasibətilə

***Azərbaycan prokurorluğu yarandığı tarixdən indiyədək enişli-yoxuşlu yollar keçsə də, zamanın sərt imtahanlarına məruz qalsa da, hər sınaqdan üzüağ çıxmış, nüfuz və etibar qazanmışdır.***

Azərbaycan Xalq Cümhuriyyətinin dövlət təsisatı və SSRİ Prokurorluğunun tərkib hissəsi kimi uzunmüddətli və mürəkkəb bir inkişaf yolu keçən Azərbaycanın milli prokurorluq orqanları yalnız ölkəmiz öz dövlət müstəqilliyini qazandıqdan sonra ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə həyata keçirilən möhtəşəm və hərtərəfli islahatlar nəticəsində tamamilə yenidən qurulmuş, normal fəaliyyəti üçün mütərəqqi normativ-hüquqi bazası, demokratik məzmunlu fəaliyyət prinsipləri və iş metodları olan sivil təsisata çevrilmişdir.

Dövlətimizin həyatında əhəmiyyətli yer tutan prokurorluğun insan hüquq və azadlıqlarının təmin edilməsi, demokratik inkişafa maneə yaradan halların aradan qaldırılması, məhkəmə-hüquq islahatlarının uğurla həyata keçirilməsi, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşması və ictimai-siyasi həyatın bütün sahələrində müstəqil dövlətimizin hüquqi bazasının möhkəm təməllər üzərində qurulmasında böyük rolu vardır. Ulu öndər Heydər Əliyev bu orqanın fəaliyyətini daim yüksək qiymətləndirmişdir. Onun "Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə ləyaqətlə xidmət edir" kəlamı həmişə ruh yüksəkliyimizin mənbəyi olmuşdur.

Məhz ulu öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların azad və sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılmış, hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulmuş, onun təkmilləşdirilməsi prosesi uğurla davam etdirilmişdir.

Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" və digər qanunvericilik aktlarının qəbul edilməsi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamə və digər normativ sənədlərin dövlət başçısı tərəfindən təsdiq edilməsi nəticəsində prokuror bu fəaliyyətinin hüquqi tənzimləmə prosesi yeni mərhələyə yüksəlmiş, bu fəaliyyətin forma və metodları demokratik dəyərlərə uyğunlaşdırılmışdır

Bu gün fəxarət hissi ilə deyə bilərik ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu məhkəmə-hüquq islahatları son 15 ildə onun layiqli davamçısı - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inamla davam etdirilir

Prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Prezident İlham Əliyevin 27 sentyabr 2008-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" xüsusi əhəmiyyətə malik olmuşdur. Həmin proqramın icrası ilə əlaqədar görülmüş çoxsaylı işlər, həyata keçirilmiş tədbirlər vətəndaş cəmiyyətində prokurorluğun rolunun artırılmasına, fəaliyyətində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunmasına, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılmasına, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsinə, prokurorluğun beynəlxalq əlaqələrinin genişləndirilməsinə səbəb oldu.

Müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü və rəhbərliyi ilə qeyd olunan Azərbaycan Respublikasında prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyinin təntənəli açılış mərasimində dərin məzmunlu nitq söyləyən ulu öndər prokurorluq əməkdaşlarının cəmiyyətdə rolunu yüksək qiymətləndirərək demişdir: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər".

1 oktyabr prokurorluq orqanları işçilərinin peşə bayramı günüdür və prokurorluğun yaradılmasının 100-cü ildönümü tamam olur. Bayram münasibətilə prokurorluq orqanlarının hər bir işçisini, veteranları və onların ailə üzvlərini təbrik edir, prokurorluğun yüksək mövqe tutan bir qurum kimi formalaşmasında ulu öndərin misilsiz əməyini minnətdarlıqla qeyd edirəm. Diqqət və qayğısını prokurorluqdan əsirgəmədiyi üçün möhtərəm Prezidentimiz İlham Əliyevə dərin minnətdarlığımı bildirir və əmin edirəm ki, Azərbaycan Prokurorluğunun əməkdaşları bundan sonra da qanunçuluğun möhkəmləndirilməsi istiqamətindəki fəaliyyətini daim gücləndirəcək, insan hüquq və azadlıqlarının pozulmasına, cinayətkarlığa qarşı barışmaz mövqe tutacaq, dövlətçiliyimizin daha da möhkəmləndirilməsi, vətəndaş cəmiyyəti quruculuğu prosesində qanunla üzərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

***Qobustan rayon prokurorunun köməkçisi - III dərəcəli hüquqşünas, Kənan Hüseynov***

# Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır



***Hər il oktyabr ayının 1-də Azərbaycan Respublikası Prokurorluğunun əməkdaşları öz peşə bayramlarını təntənə ilə qeyd edirlər. Bu günün qeyd olunması tarixi zərurətdən yaranmışdır.***

Bu münasibətlə Qobustan rayon icra başçısı cənab Adil Məmmədov, Qobustan rayon prokuroru və prokurorluq orqanının işçiləri ümummilli lider Heydər Əliyevin xatirəsini ehtiramla yad edib.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluq orqanlarının fəaliyyətə başlamasını əsas tutaraq hər il oktyabr ayının 1-nin Azərbaycan Respublikası Prokurorluğu işçilərinin peşə bayramı günü kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamışdır.

Məhkəmə orqanlarından fərqli olaraq, bir çox dövlətlərdə prokurorluq müstəqil institut kimi xeyli sonralar yaranmışdır. Dövlət idarəetmə mexanizminin tərkib hissəsi kimi prokurorluğun əsası ilk dəfə XIV əsrin əvvəllərində Fransada kral IV Filip tərəfindən qoyulmuşdur.

Onun vaxtında kral mənafelərinin prokurorluq tərəfindən təmsil edilməsi Qanunla (25



mart 1302) təsbit edilmişdi. Həm Qərb ölkələri, həm də Rusiya prokurorluqlarına bir örnək kimi təsiri olan Fransa prokurorluğunun təşkili və fəaliyyəti haqqında qanun isə 1586-cı ildə qəbul olunmuşdur. Müstəqil Azərbaycan dövlətində prokurorluq orqanlarının yaranma tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə (1918-1920) təsadüf edir.

# "Zərərli orqanizmlərin fenologiyası ilə mədəni bitkinin inkişaf fenologiyası və aqrometeroloji parametrlərin düzgün uzlaşdırılması mütləqdir"

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Xidməti tərəfindən Qobustan rayonunda "Dağlıq Şirvan bölgəsində fitosanitar vəziyyət, taxıl bitkilərinə ziyan vuran orqanizmlər əleyhinə mübarizənin səmərəliliyinin artırılması və pestisidlərin tətbiqi zamanı qarşıya çıxan problemlər" mövzusunda regional müşavirə keçirilib.**

Qobustan Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov müşavirəni açaraq, 2018-ci ildə rayonda kənd təsərrüfatının inkişafı sahəsində qazanılan nailiyyətlər barədə məlumat verib.

Dövlət Fitosanitar Xidmətinin rəisi Ələddin Eyvazov "Xüsusi təhlükəli və yüksək risk dərəcəsi yaradan orqanizmlərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və fitosanitar vəziyyətin təhlili" mövzusunda çıxış edib.

Xidmət rəisi deyib ki, FAO-nun illik hesabatlarına əsasən, hər il zərərli orqanizmlərin təsirindən dünyada 35-40% məhsul itkisi baş verir ki, bu itki aclıq çəkən Afrika ölkələrinin tamamilə kənd təsərrüfatı məhsulları və ərzaqla tam təmin olunması deməkdir: "Hər bir təsərrüfat subyektinin, eləcə də fermerin qarşıya qoymuş olduğu əsas məsələ yüksək məhsul əldə edlməsinə yönəlmiş innovativ texnologiyaların tətbiqi ilə yanaşı, zərərverici və xəstəliklərlə mübarizənin düzgün təşkil edilməsindən ibarətdir. Bunun üçün əvvəlcədən kompleks tədbirlər sisteminin və bu tədbirlər sisteminin tərkib hissəsi olan müasir dövrün əsas mübarizə forması - inteqrir mübarizənin taxıl bitkilərinə xas texnoloji xəritəsinin işlənib hazırlanmasıdır. Bu zaman zərərli orqanizmlərin fenologiyası ilə mədəni bitkinin inkişaf fenologiyası və aqrometeroloji parametrlərin düzgün uzlaşdırılması mütləqdir".

Ə.Eyvazov qeyd edib ki, taxıl əkinlərinə əsasən xüsusi təhlükəli zərərvericilərdən siçanabənzər gəmiricilər, eləcə də taxıl böcəyi, məftil qurdları daha çox ziyan vurur: "Cari ilin 9 ayı ərzində Qobustan rayonu üzrə zərərverici və xəstəliklərin yayılma arealını müəyyənləşdirmək məqsədi ilə 119702 hektar sahədə müşahidələr aparılıb, 43833 hektarda mübarizə işləri həyata keçirilib. Bunun da 16653 hektarında aparılan mübarizə işləri büdcə vəsaitinin hesabına olub. Qobustan rayonunda karantin və xüsusi təhlükəli zərərvericilərdən siçanabənzər gəmiricilərə qarşı 22051 hektar sahədə (16653 hektar büdcə vəsaiti hesabına), taxıl böcəyinə qarşı 650 hektar sahədə mübarizə işləri aparılıb.

Payızlıq taxıllarda toxumun dərmanlanmasının ən önəmli fitosanitar tədbirlərdən olduğunu diqqətə çatdıran Dövlət Xidmətinin rəisi qeyd edib ki, Respublikada cari ildə 67880 ton dənli bitki toxumları dərmanlanıb: "Dərmanlama işlərində Selest Top (Tiometoksam +Defenokonazol+Fludioksanil) 1,5-2, Rubin-2 (Tebukonazole)- 0,5, Konil DS (Dikonazole)-1,5, Tebu-60 (Tebukonazole)-0,5 və s kimi yüksək effektliyə malik müasir preparatlardan istifadə edilir. Qobustanda cari ilin 9 ayı ərzində 1830 ton toxum dərmanlanıb".

"Siçanabənzər gəmiricilər və onlar əleyhinə mübarizənin təşkili" mövzusunda çıxış edən Dövlət Xidmətinin rəis müavini Yaqub Cəfərov bildirib ki, dövlət fond torpaqlarında fitosanitar balansın pozulmasında siçanabənzər gəmiricilər xüsusi rola malikdir: Y. Cəfərov diqqətə çatdırıb ki, Respublikamızda son illərdə gəmiricilərə qarşı mübarizə məqsədi ilə sink fosfid (hər hektarda 75 qram), Garantex (0,5 kq/ha) və Brodifakum (3kq/ha) preparatları tətbiq olunur. ".

"Xəstəlik və zərərvericilər əleyhinə toxumların dərmanlanması zamanı səmərəliliyin artırılması yolları" mövzusunda çıxış edən Respublika Bitki Mühafizəsi Mərkəzinin mütəxəssisi Xoşqədəm Ələsgərova toxumların dərmanlamasının üstünlükləri və səmərəsi barədə məlumat verib.

X.Ələsgərova bildirib ki, dərmanlanmış toxumlar sayəsində itkisiz və güclü inkişafa malik bitkilər əmələ gəldiyindən bütün bitkilərin məhsuldarlığı artır: "Kompleks şəkildə aparılmış dərmanlamalar nəticəsində hətta əlverişsiz şəraitdə belə toxumların yaxşı cücərtiləri əmələ gəlir. Düzgün seçilmiş preparatlar toxumun və cücərtilərin bəzi fizioloji proseslərinə təsir etdiyindən bitkinin inkişafını stimullaşdırır. Dərmanlanmış toxumlardan vaxtında cücərtilər alınır, cücərtilərin inkişafı ləngimir, güclü inkişaf etmiş bitkilər xəstəliklərə yoluxmur, stresə qarşı davamlı olur və nəticədə keyfiyyətli məhsul alınır. Toxum səpildikdən sonra torpaqda olan zərərli orqanizmlərin təsirinə məruz qalır. Dərmanlama toxumları həm daxildən, həm də torpaq patogenlərindən qoruyur. Cücərtilərin kök çürümə xəstəliyi, eləcə də torpaq zərərvericiləri ilə zədələnməsini azaldır. Payızlıq əkinlərin soyuqa qarşı davamlılığı artır. Həmçinin, insektisidlərin və fungisidlərin səpin materialında olması, sonradan torpağa verilir.

İnfeksiyaya uğramış sünbüllər yaşıl rəngdə uzun müddət qalır, eyni zamanda onlar sağlamlara nisbətən daha nazikdirlər.

Törədicilər teliospor şəklində toxumlarda və ya quraqlıq zonalarda torpaqda saxlanılır. Səpindən sonra teliosporlar cücərir və haploid bazidiosporlarla (sporidi) bazidilər formalaşır. İnkişaf edən patogen çiçək toxumluğuna düşən zaman göbələyin mitseli toxumalarda yayılır. Sirayətlənən bitkilərin buğumları qısaldığından adətən sağlamlardan kiçikdir, onların sünbülləri isə boruya çıxma fazasında göy-yaşıl rəngli olurlar.

Törədicinin mitseli inkişaf etdikcə tünd kifləşmiş fraqmentlərə transformasiya olunur, onlardan isə gələcəkdə teliosporlar formalaşır və "sürmə kisələri" əmələ gəlirlər.

Xəstəlik sünbüllər əmələ gələn zaman müşahidə edilir. T. caries göbələyi ilə yoluxmuş dəni süd yetişmə fazasında sıxan zaman ondan üç metilamin iyi verən boztəhət maye ayrılır.

Mübarizə tədbirləri. Buğdanın bərk və ya iylənən sürmə xəstəliyindən qorumaq üçün elə tədbirlər həyata keçirilməlidir ki, xəstəliyin kütləvi inkişafının qarşısı alınsın.Tədbirlər sistemi ölkənin hər bir regionu üçün xəstəliyin inkişaf qanunauyğunluqları, bitkinin becərilmə şəraiti və intensiv texnalogiyanın tələbləri nəzərə alınmaqla işlənməlidir.

Fumqisidlərdən mübarizə tədbiri üçün aşağıdakılardan istifadə olunur.

Xüsusi təhlükəli zərərli orqanizmlər

**I.Siçanabənzər gəmiricilər**

**2.Mərakeş çəyirtkəsi (Dociostaurus maroccanus Thun.)**

**3.İtaliya çəyirtkəsi (Calliptamus italicus L.)**

**4.Taxıl böcəyi (Zabrus tenebrioides Goeze)**

**5.Ziyankar bağacıq (Eurygaster integriceps Put.)**

# 5 oktyabr - Beynəlxalq Müəllimlər günüdür

**Müəllimlər günü YUNESKO-nun qərarı ilə 1966-cı ildən bayram olunur. Həmin il təşkilat tərəfindən müəllimlərin statusunun artırılması ilə bağlı tövsiyə xarakterli sənəd də qəbul edilib. Ölkəmizdə müəllimlər günü 1993-cü ildən qeyd edilməyə başlanıb.**

Beynəlxalq Müəllimlər günü həyatını xalqın işıqlı gələcəyinə həsr edən müqəddəs peşə sahiblərinin bayramıdır. "Hər birimizdə müəllimin hərarətli qəlbinin bir zərrəciyi var. Mən dünyada müəllimdən şərəfli ad tanımıram" deyən ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün illərdə müəllim əməyini yüksək qiymətləndirib, onlara böyük hörmətlə yanaşıb, təhsil işçilərinin maddi vəziyyətinin, rifah halının yaxşılaşdırılmasının qayğısına qalıb. "Hər kəs öz tərcümeyi-halı, öz həyat yolu ilə məktəbin, müəllimin insanın həyatında nə kimi rolu olduğunu bilir və onu qiymətləndirməlidir. Mən isə bütün varlığımla, keçdiyim həyat yolu ilə həmişə məktəbə, müəllimə borcluyam." Ölkəmizdə son illərdə təhsilin inkişafı ilə bağlı həyata keçirilən kompleks tədbirlər, Prezident İlham Əliyevin bu amili dövlət siyasətinin mühüm prinsipləri sırasına daxil etməsi, təhsil işçilərinə hərtərəfli qayğı dövlətin öz gələcəyini daha etibarlı və inamlı görmək əzmindən xəbər verir. Zəngin təbii sərvətləri ilə dünyanın diqqətində olan Azərbaycan bu sərvətlərdən səmərəli istifadə ilə insan kapitalının daha da inkişaf etdirilməsi başlıca istiqamət seçib. Təsadüfi deyil ki, 21-ci əsr Azərbaycanında əsl təhsil bumu yaşanır. Son illərdə ölkəmizdə heç bir dövrdə olmadığı qədər yeni məktəb tikilib, əlavə korpuslar inşa olunub. İndi Azərbaycanda elə təhsil ocaqları var ki, dünyanın ən inkişaf etmiş ölkələrindəki məktəblərdən fərqlənmir, hətta onları üstələyir. Sevindirici hal bir də odur ki, bu proses paytaxtla yanaşı, bütün bölgələri də əhatə edir. Heydər Əliyev Fondunun dövlətin bu fəaliyyət proqramına verdiyi dəstək isə öz mükəmməliyi ilə seçilir. Fond ölkədə məktəb tikintisində yaxından iştirakla yanaşı, onların əyani vəsaitlər, şagirdlərin məktəb ləvazimatı ilə təminatında da mühüm rol oynayır.



Yeni, müasir məktəblər, yeni təhsil kompleksləri şagird kontingentinin təhsil şəraitini tamamilə dəyişir, tədrisin səviyyəsini yüksəldir. Bütün bu tədbirlər Prezident İlham Əliyevin ""Uşaqlar yaxşı məktəblərdə oxumalı, müəllimlər də yaxşı məktəblərdə işləməlidirlər" fikrini reallığa çevirir. Təhsil işçilərinin əmək haqlarının artırılması, mükafatlandırılması, fəxri adlarla təltif edilməsi, müəllimlərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar da təhsil işçiləri üçün böyük stimul olmaqla, onların məsuliyyətini də artırır. Artıq 4 ildir ki, Prezident İlham Əliyevin qərarı ilə ölkəmizdə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" müsabiqəsi keçirilir. Müsabiqənin yekunlarına əsasən, "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsində müvəffəqiyyət qazanan 50 ümumtəhsil məktəbinin hər birinə on min manat, "Ən yaxşı müəllim" müsabiqəsində qalib gələn yüz müəllimin hər birinə beş min manat məbləğində birdəfəlik pul mükafatı verilir. "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun, onun nüfuzunun yüksəldilməsinə xidmət edir. Prezident İlham Əliyevin 6 sentyabr 2010-cu il tarixli sərəncamı ilə dövlət büdcəsindən maliyyələşdirilən təhsil müəssisələrində çalışanların əmək haqları sentyabrın 1-dən 10% artırıldı. Ucqar kəndlərə işləməyə göndərilən müəllimlərə xüsusi imtiyazların verilməsi də müəllim əməyinə verilən qiymətdən xəbər verir. Həmişə olduğu kimi, bu ilki Bilik günündə də iştirak edən Prezident İlham Əliyev dövlətin təhsilə və təhsilin əsas siması olan müəllimə göstərdiyi diqqəti bir daha təsdiq etdi və bunun davamlı olacağını diqqətə çatdırdı. Mənim üçün məktəb illəri hər bir insan kimi unudulmaz illərdir. Burada, bu məktəbdə mənə verdikləri biliklərə görə müəllimlərimə minnətdaram və o xatirələri həmişə ürəyimdə saxlayıram. Bununla bərabər, mənim üçün bütün məktəblər əzizdir və doğmadır. Məhz buna görə Azərbaycanda son illər ərzində məktəb tikintisi çox geniş vüsət almışdır. Son illər ərzində 2161 məktəb tikilib və təmir edilmişdir. Bütün məktəblərdə kompüter sinifləri yaradılıbdır. Hesab edirəm ki, Azərbaycanda təhsilin səviyyəsi müasir tədris prosesinin inkişafı hesabına daha da qalxacaqdır.

Azərbaycanda dərs ili yeni başlayıb. Demək, Azərbaycanın böyük müəllim ordusu var və onlar respublikamızın intellektual potensialının gücləndirilməsi yolunda yorulmadan fəaliyyət göstərirlər.

***"Qobustan"qazetinin baş redaktoru R.Şahbazov***

# Qobustan rayon Ərəbşahverdi kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi

***Qobustan rayon Ərəbşahverdi kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. Görüşdə ilk öncə Ərəbşahverdi kənd üzrə nümayəndə Qaragedəyev Sadəddin hesabat verərək il ərzində kənddə görülən işlər barədə danışdı. Kənddə 80 təsərrüfat var.***

Ərəbşahverdi kəndinin ümumi ərazisi 2502 hektar, əhalisi isə 1088 nəfərdir. Kəndin əkinə yararlı sahəsi 575 hektardır. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

Sonra kənd əhalisindən Ələkbərov Rasim Ağakərim oğlu, Mustafayev Sənan Əzizbala oğlu, Zərbəliyeva Ülfət Afət qızı və başqa vətəndaşlar çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdi. Kənd əhalisinin rahatlığı üçün kənd məktəbinin əsaslı təmirini, kəndin su probleminin həllini və işıq dirəklərinin əsaslı təmir olunmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov Ərəbşahverdi kəndinin problemləri ilə yaxından tanış olduğunu bildirdi. Kəndin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl olunaraq əkilməsinin və ziyanvericilərə qarşı aparılan mübarizənin vacib olduğunu qeyd etdi. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Vətəndaşlara bildirlidi ki, göstərilən məsələlər də tez bir zamanda öz həllini tapacaq.

# Qobustan rayonunun Ərəbşalbaş kəndində RİH-nin başçısı cənab Adil Məmmədov səyyar qəbul keçirdi

**Qobustan rayonun Ərəbşalbaş kəndi qədim tarixə malikdir. Kənd əhalisi əsasən heyvandarlıq və əkinçiliklə məşğuldur. Rayon İcra Hakimiyyətinin başçısı Adil Məmmədov kənd sakinlərinin problemlərini, təklif və istəklərini dinləmək üçün 26 oktyabr 2018-ci il tarixdə Ərəbşalbaş kəndində səyyar görüş-qəbul keçirmişdir.**

Görüşdə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin işçisi Qalib Əsgərov da iştirak etmişdir. Tədbiri giriş nitqi ilə açan İƏD üzrə nümayəndə Solmaz Mehraliyeva gələn qonaqları salamlayaraq rayonumuzda aparılan abadlıq-quruculuq işlərinə görə ölkə prezdenti cənab İlham Əliyevə kənd sakinləri adından təşəkkür etdi. Sonra RİH-nin başçısı Adil Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Qobustan rayonuna səfərləri, dövlətimizin, və dövlət rəhbərinin rayonumuza diqqəti və qayğısı barədə kənd sakinlərinə məlumat verib. RİH başçısı bildirib ki, çoxsaylı sosial, istehsal, emal, infrastruktur obyektlərinin, yeni yolların açılışı, səfərdən sonra cənab Prezidentin qəbul etdiyi sərəncamlar Qobustan rayonunun geniş miqyasda, çoxistiqamətli inkişafı üçün möhkəm əsas yaradır.







Hər bir inzibati ərazi dairəsi, hər bir kənd, hər bir rayon sakini qarşıya qoyulmuş vəzifələrin, yeni layihələrin həyata keçirilməsi üçün fədakarlıqla çalışmalıdır.

İcra hakimiyyətinin başçısı daha sonra kəndin həlli vacib problemlərindən və onların həlli yollarından danışıb. Qeyd edib ki, Vətəndaşlar hər bir addımda, hər bir fəaliyyət istiqamətində qanunçuluğa riayət etməli, xüsusilə də torpaqlardan istifadə, tikinti məsələlərində, enerji resurslarından istifadədə diqqətli olmalıdırlar. Görüş zamanı vətəndaşlar kənddə kənd məktəbinin təmir edilməsi ilə bağlı müraciət etmişlər. RİH başçısı qaldırılan məsələlənin həlli ilə bağlı aidiyyatı üzrə idarə-müəssisə rəhbərlərinə tapşırıqlarını verib.

***İnformasiya təminatı və təhlil sektoru, sektor müdiri Niyal Xanəliyev***

# Qobustan rayon Yekəxana kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi

***Qobustan rayon Yekəxana kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi.***







Görüşdə ilk öncə Yekəxana kənd üzrə nümayəndə Astanov Tarverdi hesabat verərək il ərzində kənddə görülən işlər barədə danişdı. Yekəxana kəndinin ümumi ərazisi 2502 hektar, əhalisi isə 1088 nəfərdir. Kəndin əkinə yararlı sahəsi 575 hektardır. Kənddə 260 təsərrüfat 144 yaşayış evi var. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır. Xüsusi ilə nar bağları vətəndaşlar üçün əhəmiyyətlidir.

Sonra kənd əhalisindən Qabulov Ağagül Ağayar oğlu, Hacatov Nizam Hazay oğlu və başqa vətəndaşlar çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdi. Kənd əhalisinin rahatlığı üçün kənd yoluna asfalt örtüyü verilməsini, kəndin yaxınlığındakı suyun evlərə çəkilməsini və işıq dirəklərinin əsaslı təmir olunmasını xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov Yekəxana kəndinin problemləri ilə yaxından tanış olduğunu bildirdi. Kəndin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Yol ilə bağlı onu qeyd etdi ki, bir neçə ildir 6 yaşayış məntəqəsini birləşdirən Qobustan - Poladlı yolunun çəkilməsinə artıq nail olmuşuq.

Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl olunaraq əkilməsinin və ziyanvericilərə qarşı aparılan mübarizənin vacib olduğunu qeyd etdi. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Vətəndaşlara bildirlidi ki, göstərilən məsələlər də tez bir zamanda öz həllini tapacaq.



# Qobustan rayon İlanlı kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi





***Qobustan rayon İlanlı kəndində RİH başçısı cənab Adil Məmmədov kənd sakinləri ilə görüş keçirdi. İlanlı kəndi Şıxzahırlı kənd İnzibati Ərazi Dairəsi üzrə nümayəndəliyinin ərazisində yerləşir.***

Görüşdə ilk öncə İlanlı kənd üzrə nümayəndə Xəlilov Qalib hesabat verərək il ərzində kənddə görülən işlər barədə danişdı. İlanlı kənd ərazisində 10 təsərrüfatda 75 nəfər vətəndaş yaşayır, ümumi ərazisi 40 hektardır. Kəndin əkinə yararlı sahəsi 37 hektardır. O, kənddə hal-hazırda yaşayan ailələr haqqında məlumat verdikdən sonra qeyd etdi ki, əhalinin əsas məşğuliyyəti əkinçilik və heyvandarlıqdır.

Sonra kənd əhalisindən Mövlamov Kəlbalı Bəşir oğlu, Qaçayev Əzizağa Ağagül oğlu, Babaverdiyev Xancan Məhəmməd oğlu və başqa vətəndaşlar çıxış edərək rayonumuzda aparılan quruculuq-abadlıq işlərinə görə cənab Prezidentimizə kənd sakinləri adından öz təşəkkürlərini bildirdilər. Kənd əhalisinin rahatlığı üçün kəndin su probleminin həllini və tibb məntəqəsinin tikilməsini xahiş etdilər.

Sonda Qobustan RİH başçısı cənab Adil Məmmədov İlanlı kəndinin problemləri ilə yaxından tanış olduğunu bildirdi. Kəndin problemləri ilə yaxından tanış olduğunu və aidiyyatı üzrə işlər görüldüyünü bildirdi. Kənddə kənd təsərrüfatına xüsusi yer verildiyini və bütün əkinlərin aqrotexniki qaydalara əməl olunaraq əkilməsinin və ziyanvericilərə qarşı aparılan mübarizənin vacib olduğunu qeyd etdi. Sonra qeyd etdi ki, rayonumuza göstərilən bu qayğıya görə cənab prezidentimiz İlham Əliyevə öz təşəkkürümüzü bildiririk.

Vətəndaşlara bildirlidi ki, göstərilən məsələlər də tez bir zamanda öz həllini tapacaq.

***Redaktor***



# "Yerli demokratiya həftəsi" çərçivəsində tədbirlər keçirilir

***Azərbaycanda Yerli Demokratiya Həftəsi çərçivəsində ”Yerli demokratiyanın inkişafı naminə vətəndaşların iştirakı, maarifləndirilməsi və öhdəlikləri” şüarı altında 15-21 oktyabr 2018-ci il tarixlərdə Qobustan rayonunun bütün bələdiyyələrində ”Yerli Demokratiya Həftəsi” keçirilir.***

Yerli Demokratiya Həftəsinin əsas məqsədi, yerli özünüidarəetmə proseslərində əhalinin rolunun, iştirakının və həmrəyliyin artırılması, fikir mübadilələrinin aparılması, qarşılqlı öhdəliklərin müəyyən olunması yolu ilə fəaliyyətin daha da genişləndirilməsi və yerli səviyyədə qərarların qəbul qəbul edilməsində gənc vətəndaşların iştirakının və fəaliyyətinin artırılması, öz icmalarında iştirak mexanizmlərini tətbiq etməklə daha çox tərəfdaşları həvəsləndirməkdir.

Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrinin Milli Assosiasiyalarının tövsiyəsinə uyğun olaraq ”Yerli Demokratiya Həftəsi” çərçivəsində bələdiyyələrin ərazisində açıq və qapalı yerlərdə vətəndaşların yerli əhəmiyyətli məsələlərlə bağlı problemlərinin həlli, onların bələdiyyənin fəaliyyətində iştirakının təmin edilməsi, müraciətlərinə baxılması, 2018-ci ildə görülmüş işlər, o cümlədən ”Bir bələdiyyə-azı bir layihə” təşəbbüsü çərçivəsində həyata keçirilmiş layihələr barədə hesabatların verilməsi, 2019-cu ilin bələdiyyə büdcəsinin və əhalidən gələn sosial sifarişlərdən irəli gələn layihələrin müzakirəsi, yerli vergi və ödənişlərin yığılması işinin təkmilləşdirilməsi, nümunəvi vergi ödəyicilərinin təbliğ olunması və mükafatlandırılması ilə bağlı görüşlərin keçirilməsi planlaşdırılmışdır. Bundan əlavə ”Yerli Demokratiya Həftəsi” çərçivəsində əhalinin müxtəlif təbəqələrini təmsil edən vətəndaşların, xüsusən də ağsaqqalların və gənclərin yerli özünüidarəetmədə iştirak edə bilmə imkanlarının artırılması və sakinlərin öhdəlikləri, bələdiyyə fəaliyyətinin təşkilindəki problemlərin müzakirəsi istiqamətində maarifləndirici toplantıların keçirilməsi, əhalini daha çox narahat edən yerli problemlərin aradan qaldırılması məqsədi ilə sosial sifarişlərin öyrənilərək həlli istiqamətlərinin müəyyənləşdirilməsi və bu kimi digər məsələlərin həlli də nəzərdə tutulmuşdur. Bu məqsədlərlə rayonun bütün bələdiyyələri tərəfindən tədbirlər planı hazırlanmış və Azərbaycan şəhər, qəsəbə və kənd bələdiyyələrin Milli Assosiasiyalarına göndərilməsi təmin edilmişdir.

# "Məhsul bayramı"



*21 oktyabr 2018-ci il tarixdə Qobustan RİH-nin və Xilmilli Molokan Ruhani Xristian dini icmasının birgə təşkilatçılığı ilə Xilmilli kəndində "Məhsul bayramı" tədbiri keçirildi.*







Tədbirdə Qobustan RİH Başçısının İctimai-Siyasi və Humanitar məsələlər şöbəsi müdirinin müavini - dni qurumlarla işin təşkilatçısı Aftandil Şikarov, Qobustan rayon Heydər məscidinin axundu Ç.Babaşov, Xilmilli İƏD üzrə nümayəndə müavini M.Cəlilov, Xilmilli kənd məscidi dini icmaisının üzvləri, Bakı, Sumqayıt şəhərlərinin, İsmayıllı və Şamaxı rayonlarının Ruhani Xristian dini icma üzvləri və Xilmilli kənd molokan ruhani xristian dini icmasının üzvləri iştirak edirdilər.

Tədbiri giriş sözü ilə açan RİH Başçısının İctimai-Siyasi və Humanitar məsələlər şöbəsi müdirinin müavini - dini qurumlarla işin təşkilatçısı Aftandil Şikarov tədbir iştirakçılarını Qobustan RİH başçısı cənab Adil Məmmədovun adından və ictimaiyyət nümayəndələri adından təbrik etdi və xoş arzularını çatdırdı. Daha sonra A.Şikarov bu bayramın mahiyyətindən, tarixindən, ölkəmizdəki tolerant, multikultural mühitdən, Möhtərəm Prezidentimizin bu sahəyə diqqət və qayğısından ətraflı danışdı. Çıxış edənlər azərbaycan və rus xalqlarının tarixi dostluğundan danışdılar və ölkəmizdəki sabitlik və inkişafa görə Möhtərm Prezidentimizə öz dərin minnətdarlıqlarını bildirdilər.

# "Diqqət uşaqlar"



***Azərbaycan Respublikası Baş Dövlət Yol Polisi İdarəsinin rəisi, general mayor Ramiz Zeynalovun göstərişi əsasında oktyabr ayında "Diqqət uşaqlar" adlı aylıq keçrilib. Belə bir tədbir Qobustan RPŞ-nın DYPB-nin əməkdaşları tərəfindən keçirildi.Təhlükəsizliyin təmin edilməsi ilə bağlı təbliğat və təşviqat, maarifləndirmə xarakteri daşıyan növbəti belə tədbir Qobustan şəhər 2 saylı tam orta məktəbində baş tutdu.***







Tədbirdə Qobustan RPŞ-nin DYPB-nin DAM polis baş leytenantı R.Ağagülov, baş inspektor R.Eyvazov, YPX inspektoru İ.Qayıbov, M.Rəcəbov, E.Abdullayev , S.Hacıyev iştirak edirdilər.

Görüşdə çıxış edən baş DAM polis baş leytenantı R.Agagülov verən piyadavurmaların ciddi narahatlıq doğurduğunu və belə görüşlərin keçirilməsinin yol qəzalarının qarşısının alınması məqsədi daşıdığını diqqətə çatdırıb, baş verə biləcək hadisələrin qarşısının alınması üçün profilaktiki tədbirlərin görülməsinin vacibliyini qeyd edib.

Bildirilib ki, yol nəqliyyat hadisələrinin qarşısının alınması üçün hər kəs məsuliyyətini dərk etməli, piyadalar yalnız müəyyən edilmiş yerlərdən istifadə etməli, həm özlərinin, həm də digər hərəkət iştirakçılarının həyat və sağlamlığının qorunmasına məsuliyyətlə yanaşmalıdırlar. Buna görə də hər kəs vətəndaşlıq mövqeyi sərgiləyərək ailədə, məktəbdə, iş yerlərində bununla bağlı fərdi söhbətlər aparmalıdırlar.

Baş Dövlət Yol Polisi İdarəsinin əməkdaşları, baş inspektor R.Eyvazov, YPX inspektoru İ.Qayıbov yol qəzalarının qarşısının alınması məqsədilə DİN-in rəhbərliyi tərəfindən respublika üzrə belə görüşlərin keçirilməsi barədə göstəriş verildiyini xatırladaraq başlıca məqsədin insanları, xüsusən də şagirdləri maarifləndirmək, onları yol qəzalarının qurbanı olmaqdan qorumaq olduğunu diqqətə çatdırıblar.

Məktəbin müəllimi Tərxan Bəbirov yol polisləri ilə keçirilən bu görüşün şagirdlər üçün xüsusi əhəmiyyət daşıdığını bildirib. O, məktəbdə yol hərəkəti qaydaları ilə bağlı ilkin biliklər öyrədildiyini vurğulayaraq hamını, xüsusilə şagirdləri yol hərəkəti qaydalarına ciddi riayət etməyə səsləyib və müəllimlərin bu işdə fəal olmasının vacibliyini qeyd edib.

Məktəbin şagirdlərini maraqlandıran suallara YPX əməkdaşları ətraflı izah veriblər.Digər çıxış edənlər polisin keçirdiyi bu cür maariflәndirmə tədbirlərinin ictimaiyyət tərəfindən təqdir olunduğunu bildiriblər.

Görüşün sonunda polis əməkdaşlarına belə bir tədbiri keçirdikləri üçün onlara təşəkkür ediblər.

***"Qobustan" qəzetinin baş redaktoru R.Şahbazov***

# Cənab Prezident dövlət qulluqçularını təltif etdi

***Dövlət qulluqçularının təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.***



Museyibov Vidadi İkram oğlu 30 aprel 1965-ci ildə Qobustan rayon Nabur kəndində anadan olub.1992-ci ildən Qobustan rayon İcra Hakimiyyətində çalışır.26 illik Dövlət Qulluğçusu staji var. 2017 ci ilin Fevral ayından Qobustan rayon İcra Hakimiyyəti Başçısının Nabur kənd inzibati ərazi dairəsi üzrə nümayəndə vəzifəsində işləyir. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 İyul tarixli 371 nömrəli sərancamı ilə "Dövlət Qulluğunda fərqlənməyə görə medalı ilə təltif edilmişdir. Uğurlarının davamlı olmasını arzu edirik!

# Layiqli ağsaqqal, xeyriyyəçi insan

***Qobustan, Şamaxı, Hacıqabul rayonlarında Hacı Bayramı tanımayan insan yoxdur.***



Onun tanınması və el arasında yaxşı mənada qəbul edilməsi əməllərinin və əməyinin nəticəsidir.

Hacı əvvəllər təsərrüfatda işləmiş, yüksək əməksevərliyi ilə həmişə başqalarından seçilmişdir.

Yüksək zehnə və zəkaya malik olması dini elmlərə yiyələnməsi onun din xadimi kimi yetişməsinə gətirib çıxarmışdır. İlahiyyatçı alimlərlə tez-tez əlaqə saxlayır, onlardan vacibləri öyrənir, sonradan özü də təbliğatçıya çevrilir.

Hacı Bayram 1980-cı ildən kəndin yas mərasimlərini idarə edir. Məşhədd ,Kərbəla ziyarətinə getmiş, İslam dininin beş şərtindən biri olan Həcc ziyarətində olmuşdur. Hal-hazırda kənd məscidinin imamıdır.

Kənd əhalisi ilə uşaqdan böyüyə qədər hamı ilə mehriban ünsiyyəti qoruyub saxlayır. Buna görə hər kəs ona hörmət və ehtiramla yanaşır.

Hacı rayonun, kəndin ictimai işlərində də yaxından iştirak edir. Kəndarası yolların təmirində, yaşıllıqlar salınmasında onun əməyi böyükdür. Hacı Bayramın bu işləri rayon rəhbərliyi tərəfindən yüksək dərəcədə qiymətləndirilir. Qobustan-Xilmilli yolunun Cəyirli kəndinə ayrılan 1.5 km -lik hissəsində yüzlərlə ağac əkdirmiş, onun sulanması və qorunmasını təşkil etmişdir. Nəticəsi isə göz qabağındadır.

***Pislik bir şey deyil, yaxşılıq eylə***
***Yaxşılıq etməyə cürət gərəkdir***
***Bir ağacı məhv etməyə nəvar dünyadə***
***Bir gül əkmək üçün hünər gərəkdir.***

Hacı Bayram, həmişə oxuduğu kəlamların, sonunda belə deyir: " Allah bizi ruzi ilə sınamasın".

Kənddə bolluq yaradanlardan biri də Hacı Bayramdır.Taxıl əkini ilə məşğul olur. Əkin elmini yaxşı bildiyindən hər il bol məhsul götürür . Bu işlə məşğul olanlara öz tövsiyyəsini əsirgəmir.

***Bəxtiyarsan əyər çəkdiyin əmək***
***Cahan süfrəsinə versə bir çiçək***

Hacı Bayramın xeyirxahlığı, xeyriyyəçiliyi, ümumiyyətlə, müsbət əməlləri barəsində çox danışmaq olar. Dini dillə desək, onun bütün gördüyü işlər ibadətdəndir. Ona camaatımız adından uzun ömür, can sağlığı arzu edirik.

***Qobustan rayon Cəyirli kənd tam orta məktəbin müəllimi Qardaşbala Təhməzov***